PARADIGMA, No.4, 2025, səh.63-69
https://doi.org/10.30546/30015.2025.01.4.1029

# AZƏRBAYCANIN SOVET DÖVRÜ ORTA MƏKTƏB TARİX DƏRSLİKLƏRİNDƏ TÜRK XALQLARINA MÜNASİBƏTİN İDEOLOJİ ASPEKTLƏRİ

**G.V. Xanizadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Üzeyir Hacıbəyli 68, Bakı, Azərbaycan
e-mail: xanizadegunay@gmail.com

**Xülasə.** Məqalədə sovet dövründə orta məktəblərdə tədris olunan tarix dərsliklərində “türk xalqları”na münasibət hərtərəfli şəkildə araşdırılmışdır. SSRİ-nin əsas məqsədi tərkibindəki xalqlar arasında “sovet ideologiyası”nı yaymaq, onların milli kimliklərini zəiflətmək və ortaq tarixi yaddaşı parçalamaq olmuşdur. Araşdırmalar göstərir ki, türk xalqlarının tarixi kölgədə saxlanılmış, onların dövlətçilik ənənələri, mədəniyyətləri və ortaq dəyərləri obyektiv şəkildə təqdim edilməmişdir. Nəticədə vətənpərvərlik hisslərinin zəifləməsi, ortaq mədəni irsə biganəlik və milli özünüdərkdə boşluqların meydana gəlməsi müşahidə olunmuşdur.

**Açar sözlər:** Türk xalqları, tarix dərslikləri, sovet dövrü, orta məktəb.

## Giriş

XX əsrin 20-ci illərində Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) yaradılmışdır. Çoxmillətli quruluş kimi SSRİ-nin əsas məqsədlərindən biri imperiya daxilində yaşayan xalqları vahid mərkəzə tabe etmək idi. Bu məqsədə nail olmağın əsas vasitələrindən biri kimi vahid ideologiyanın formalaşdırılması nəzərdə tutulurdu. İdeoloji təməlin qoyulması isə ilk növbədə təhsil sistemi üzərindən həyata keçirilirdi. SSRİ dərs vəsaitlərini siyasi maraqlarına uyğunlaşdıraraq ideoloji təbliğatın mühüm alətinə çevirmişdir. Bu baxımdan tarix dərslikləri xüsusi əhəmiyyət kəsb edirdi. Tarix kitabları vasitəsilə müxtəlif xalqlara sovet ideologiyası aşılanmış, milli tarix isə sistemli şəkildə ikinci plana keçirilmişdir. SSRİ tərkibindəki digər xalqlar kimi türk xalqları da bu prosesin təsirinə ciddi şəkildə məruz qalmışdır. Sovet dövründə yazılan tarix kitabları, xüsusilə də məktəb dərslikləri, məqsədli şəkildə təhrif olunmuşdur. Bütün bu tədbirlərin başlıca məqsədi “sovet ideologiyası”nı möhkəmləndirmək və “sovet xalqı” anlayışını formalaşdırmaq idi. Sovet hakimiyyətinin yaratdığı bu təsirləri daha dərindən anlamaq üçün həmin dövrdə nəşr edilən tarix dərsliklərinin məzmununu nəzərdən keçirmək və onları elmi baxımdan təhlil etmək məqsədəuyğun hesab olunur.

## Tədqiqat

Məqaləmizdə Sovet işğalından sonra – əsasən repressiya, kütləvi qırğınlar və siyasi-mədəni təmizlənmə tamamlandıqdan sonra, 1940-cı illərdən başlayaraq 1990-cı ilə qədər yazılmış dərsliklər diqqət mərkəzinə alınmışdır.

Sovet məktəblərində tarix dərsləri 5-ci sinifdən etibarən tədris olunmağa başlanmışdır. Dərsliklər “Qədim dünya tarixi”, “Orta əsrlər tarixi” və “SSRİ tarixi” kimi başlıqlardan ibarət idi.

5-ci sinif üçün nəzərdə tutulmuş "Qədim dünya tarixi" dərsliyində türk xalqlarına yer verilməmişdir. Təhsilalanlar əsasən qədim Misir, Roma, Hindistan və digər dövlətlər haqqında məlumatlandırılmışdır. Sovet dövründə bu dərs vəsaitləri mütəmadi olaraq yenidən nəşr olunmuş olsa da, qədim dövrdə türk xalqlarının yaşayış tərzi ilə bağlı məlumatlar təqdim edilməmişdir. Yalnız "Zaqafqaziya" ərazisinin adı çəkilmiş və bu ərazi Assuriya qoşunlarının yürüyüş etdiyi yer kimi təqdim olunmuşdur, amma Zaqafqaziyanın konkret hansı hissəsi olduğu göstərilməmişdir. Assuriya qoşunlarının Zaqafqaziya səfəri belə təsvir olunur:

"Uçurumlarda və dərələrdə mən onların qanını sel kimi axıtdım; çölləri, düzənlikləri, yüksəklikləri qıpqırmızı yun kimi boyadım; ətraf kəndlərə od vurub bunları ocaq kimi yandırdım; kanaldakı tərtəmiz suyu bataqlığa çevirdim. Mənim döyüşçülərim gözəl bağlara girib dəmir baltaları işə saldılar, bir sünbül də salamat qoymadım" [3, s.79].

Müasir dövrdə Azərbaycan ümumorta məktəblərində isə 5-ci sinif şagirdlərinə "Azərbaycan tarixi" fənni tədris olunur. Bu səviyyədə şagirdlərə Azərbaycan tarixinin başlanğıcından müasir dövrə qədər baş vermiş əsas hadisələr qısa şəkildə təqdim edilir. Türk xalqlarına aid mövzulardan yalnız iki mövzu öyrədilir:

- "Səlcuqlar və Azərbaycan"
- "Kitabi-Dədə Qorqud"

Sovet dövründə tədris olunan 6-cı sinif tarix dərsliklərində 5-ci sinifdə olduğu kimi türk xalqlarının tarixinə yer verilməmişdir. Amma müasir Azərbaycan orta məktəblərində tədris olunan 6-cı sinif tarix dərsliklərində türk xalqlarının tarixinə kifayət qədər diqqət yetirilmişdir. Şagirdlər qədim türk xalqlarının mədəniyyəti və yaşayış tərzi haqqında geniş məlumat əldə edirlər. Həmin dərsliklərdə Böyük Türküstan, kimmer, iskit, sak tayfaları və türk tarixində xüsusi yeri olan Hunlar haqqında məlumatlar əks olunmuşdur.

SSRİ məktəblərində tədris olunan 7-ci sinif "Orta əsrlər tarixi" dərsliyində türk xalqlarına aid yalnız 2 mövzu əksini tapmışdır. Həmin mövzuların adları belədir:

- Səlcuq türkləri
- Türkiyə XVI-XVII əsrlərdə

"Səlcuq türkləri" mövzusunda Səlcuqlar haqqında belə bir ifadə təqdim olunmuşdur:

"Xəlifələr dövləti qəti olaraq XI əsrin ortalarında dağıldı, bu zaman Orta Asiyada yaşayan Səlcuq türkləri İrana soxulmuşdular" [6, s.75].

Bu sitatın məzmunundan aydın olur ki, sovet dövründə istifadə olunan dərsliklərdə Səlcuq türkləri işğalçı xalq kimi təqdim edilmişdir. Bu yanaşma, sovet ideoloji siyasətinin bir hissəsi olaraq, türk xalqlarının tarixini təhrif etməyə xidmət etmişdir.

Sovet dövründə 7-ci sinif "Orta əsrlər tarixi" dərsliyində şagirdlərə "Türkiyə XVI–XVII əsrlərdə" adlı mövzu tədris olunurdu. Əvvəlcə qeyd etmək lazımdır ki, mövzunun adlandırılmasında terminoloji uyğunsuzluq mövcuddur. Belə ki, bu dövr üçün "Türkiyə" ifadəsi deyil, "Osmanlı imperiyası" anlayışının işlədilməsi daha düzgün olardı. Dərslikdə əsasən türklərin Konstantinopol və digər əraziləri fəth etməsi haqqında məlumat verilir, Osmanlı imperiyasının Sultan Süleyman dövründə ən yüksək inkişaf mərhələsinə çatdığı vurğulanırdı. Bununla belə, Osmanlı türklərinin tabe etdikləri ərazilərdəki xalqlara münasibəti haqqında belə bir ifadəyə yer verilmişdir:

"Fəth edilən ölkələrdəki xalqların çoxu Türkiyə ağalığına könüllü surətdə tabe olmaq istəmirdilər. Onları tabe olmağa məcbur etmək üçün Türkiyə əyanları ən amansız tədbirlər görürdülər. Türkiyə hər bir hərbi səfərində şəhərlər və kəndlər dağıdılır, on və yüz minlərlə adam məhv və ya qul edilirdi" [6, s.288].

Bu ifadələrdən də göründüyü kimi, sovet dövründə tərtib olunmuş dərsliklərdə Osmanlı türkləri vəhşi, zorakı və tabe etdikləri xalqlara qarşı amansız münasibət göstərən xalq kimi təqdim olunmuşdur. Bu yanaşma qardaş türk xalqının tarixi irsini mənfi çalarlarda təqdim etməyə xidmət etmişdir.

Sovet dövründə 8-ci sinif şagirdlərinə tədris olunan "SSRİ tarixi" dərsliyində Orta Asiyada və Zaqafqaziya ərazilərində feodal quruluşunun təşəkkülü və ərəb feodallarının bu əraziləri zəbt etməsi barədə məlumat verilmişdir. Həmçinin dərslikdə gürcülərlə türklər arasında gedən mübarizədən bəhs olunaraq, gürcü dövlətinin səyləri nəticəsində Səlcuq türklərinin Zaqafqaziyadan qovulduğu iddia edilmişdir.

Daha sonra XII–XIII əsrlərdə gürcü və erməni qoşunlarının birləşərək Ermənistan ərazilərini "türklərdən azad etməsi" haqqında məlumat təqdim olunmuşdur. Halbuki tarixi faktlar göstərir ki, türklər heç vaxt erməni ərazilərini zəbt etməmiş, əksinə, ermənilər müxtəlif dövrlərdə türk torpaqlarını işğal etmişlər. Bununla yanaşı, dərslikdə qeyd olunur ki, guya Səlcuq türkləri Zaqafqaziyadan çıxarıldıqdan sonra Azərbaycan, Gürcüstan və Ermənistan mədəniyyəti tərəqqi etmişdir.

Dərslikdə eyni zamanda monqolların Azərbaycan ərazilərini viran etməsi, Osmanlı türklərinin isə Krımı ələ keçirməsinin ruslar üçün təhlükə mənbəyi kimi qiymətləndirilməsi də vurğulanmışdır. Bütün bu məlumatlar iki mövzu başlığı altında təqdim olunmuşdur:

- "Feodalizmin möhkəmlənməsi dövründə Orta Asiya və Zaqafqaziya"
- "Şimal-Şərqi rus torpaqlarının birləşdirilməsinin başa çatdırılması və tatar-monqol əsarətinin devrilməsi"

Sovet dövründə tədris olunan "SSRİ tarixi" 9-cu sinif dərsliyində türk xalqları haqqında əvvəlki siniflərlə müqayisədə daha geniş məlumat verilmişdir. Türk xalqlarından bəhs edən mövzular aşağıdakı başlıqlar altında təqdim olunmuşdur:

• "İsveç ilə müharibənin qurtarması. Rusların Şərqdə apardığı müharibələr"

Bu mövzuda 1710-cu ildə Osmanlı imperiyasının Rusiyaya müharibə elan etməsi haqqında məlumat verilir. Dərslikdə qeyd olunur ki, müharibənin nəticəsində türklər ruslara qarşı üstünlük əldə etmişlər.

• "Orta Asiya XVIII əsrdə"

Bu bölmədə isə qazaxların müstəqilliklərini qorumaq üçün daim mübarizə aparmaları haqqında danışılır. Həmçinin ruslarla yaxınlaşmanın Qazaxıstanın inkişafı üçün əlverişli olduğu vurğulanır, lakin aborigen (yerli) qazax əhalisinin bu münasibətə müsbət yanaşmadığı qeyd edilir.

Sovet dövründə tərtib olunmuş dərsliklərdə Əfşar dövlətinin hökmdarı Nadir şah "İran hökmdarı" kimi təqdim edilmişdir. Halbuki tarixdən məlumdur ki, Əfşarlar türk dövləti olmuş, Nadir şah isə türk mənşəli hökmdar idi.

• "Zaqafqaziya XIX əsrin birinci rübündə"

Bu mövzuda Türkiyə ilə İran arasında baş verən qanlı müharibələrin Zaqafqaziyanın daha da parçalanmasını sürətləndirdiyi vurğulanmışdır. Lakin bu məlumat yanlışdır. Həmin dövrdə "İran dövləti" mövcud olmayıb, əslində müharibə aparan dövlət türk mənşəli Qacarlar dövləti idi.

Dərsliklərdə həmçinin türklərin gürcüləri zorla islamlaşdırması, Zaqafqaziya əhalisini qul kimi satması kimi iddialara da yer verilmişdir. Lakin bu məlumatların heç bir etibarlı tarixi mənbəyə əsaslanmadığı açıq-aşkar görünür.

Dərslikdə XIX əsrə aid hadisələr bir neçə mövzu başlığı altında təqdim olunmuşdur:

• "1806–1812-ci illərdə rus–türk müharibəsi"

Bu bölmədə Rusiya ilə Osmanlı dövləti arasında baş verən müharibədən bəhs edilmişdir.

• "Qafqazın qəti istilası. Rusların İran və Türkiyə ilə yeni müharibələri"

Burada rusların apardığı müharibələr və Azərbaycan xanlıqlarının işğalı haqqında məlumat verilir. Bu hissədə də Qacar dövləti yanlış olaraq "İran dövləti" kimi təqdim olunmuşdur. Halbuki Qacar sülaləsi türk mənşəli sülalə olmuşdur.

• "Orta Asiya xalqları və çarizmin Qazaxıstana və Orta Asiyaya yeriməsi"

Bu bölmədə Türkmənistan, Qırğızıstan və Qazaxıstan əraziləri haqqında məlumat verilir. Dərslikdə Türkmənistanın əhəmiyyətli bir hissəsinin guya İran hakimiyyəti altında olduğu

bildirilir. Bununla yanaşı, rusların Orta Asiya türklərini zor gücünə öz hakimiyyəti altına salması prosesi təsvir olunmuşdur.

• "XIX əsrin birinci yarısında çar Rusiyası xalqlarının mədəniyyəti"

Bu hissədə Azərbaycan milli ədəbiyyatının inkişafı, xüsusilə də Mirzə Fətəli Axundzadənin maarifçilik fəaliyyətinin əhəmiyyəti vurğulanmışdır. Bununla yanaşı, dərslikdə ermənilərin Osmanlı ərazilərindən guya məcburi şəkildə köçürülməsi kimi əsassız - yalan məlumatlara da yer verilmişdir.

• "60–70-ci illərdə çarizmin xarici siyasəti"

Bu bölmədə Rusiya ilə Osmanlı arasında baş verən müharibədən bəhs olunur. Dərslikdə qeyd edilir:

"Avropa cəbhəsindəki hərbi əməliyyatla bir zamanda Rusiya Türkiyəyə qarşı Zaqafqaziyada da müharibə aparırdı. Burada rus qoşunları türkləri bir neçə dəfə bərk məğlub edib, Ərdəhan və Kars qalalarını tutdular" [8, s.268].

Bu ifadələrdən göründüyü kimi, dərslikdə türk xalqlarına aid bütün mövzularda ruslar özlərini Zaqafqaziyanın müdafiəçiləri kimi təqdim etmişlər. Əslində isə məqsəd həmin əraziləri daimi olaraq öz imperiya hakimiyyəti altına almaq olmuşdur.

Sovet dövründə tədris olunan 10-cu sinif "SSRİ tarixi" dərsliyində türk xalqlarının tarixinə demək olar ki, yer verilməmişdir. Yalnız iki mövzuda qismən türk xalqlarından bəhs olunmuşdur:

• "1905–1907-ci illərdə Rusiyanın məzlum xalqlarının milli-azadlıq hərəkatı"

• "Sovet hakimiyyəti tərəfindən məzlum xalqların azad edilməsi"

Bu mövzularda əsas diqqət çarizm rejiminin devrilməsi və bir müddətdən sonra Sovet hakimiyyətinin formalaşmasına yönəldilmişdir. Proses çərçivəsində milli azadlıq uğrunda mübarizə aparan xalqların fəaliyyətindən söz açılır. Bu xalqlardan biri də Zaqafqaziyada yaşayan azərbaycanlı əhali idi.

Dərslikdə qeyd olunur ki, Zaqafqaziyada inqilabi hərəkat daha geniş vüsət almışdır. 1905-ci ildə şəhərlərdə ümumi fəhlə tətilləri baş vermiş və bu hadisələr siyasi proseslərin tərkib hissəsinə çevrilmişdir. Müqavimət getdikcə güclənmiş və nəticədə Zaqafqaziya Komissarlığı yaradılmışdır. Lakin üsyançılara qarşı mübarizədə çətinliklər yaşanmış, hətta Qərb imperialistlərindən kömək istənilmişdir. Bu isə xüsusilə Bakı üçün təhlükəli vəziyyət yaratmışdır. Çünki Bakı nefti artıq Qərb dövlətlərinin diqqət mərkəzinə çevrilmişdi.

İnqilabi hərəkat Orta Asiya regionunda da genişlənmişdir. Nəticədə Türküstan Sovet Hökuməti yaradılmışdır. Türküstan Qızıl Qvardiya dəstələrinin tərkibində özbəklər, qırğızlar, qazaxlar və türkmənlər də iştirak etmişdir. Bu faktlar, hər nə qədər sovet ideologiyası

çərçivəsində təqdim olunsa da, türk xalqlarının mübarizə ruhunu və qismən də olsa birləşərək göstərdikləri gücü nümayiş etdirir.

Bütün bu faktlar göstərir ki, sovet dövründə yazılmış tarix dərsliklərində türk xalqlarının tarixi məqsədli şəkildə təhrif olunmuş, onların siyasi və mədəni irsi ya işğalçı və zorakı obrazda təqdim edilmiş, ya da yalnız sovet ideologiyasının "azad etdiyi məzlum xalqlar" kimi göstərilmişdir. Türk xalqlarının müstəqillik uğrunda apardığı mübarizənin əsl mahiyyəti gizlədilmiş, onların dövlətçilik ənənələri və milli kimliyi kölgədə qoyulmuşdur.

Beləliklə, sovet dərsliklərinin məzmunu təkcə ideoloji təbliğat vasitəsi olmayıb, həm də türk xalqlarının tarixi yaddaşını zəiflətməyə xidmət edən sistemli siyasətin bir parçası olmuşdur.

**Nəticə**

Nəticə olaraq qeyd etmək olar ki, Sovet dövründə nəşr edilən tarix dərsliklərində "Türk xalqlarının tarixi"nə geniş yer ayrılmamışdır. Türklərin tarixi və həyat tərzi haqqında məlumatlar təhsilalanlara natamam, təhrif olunmuş və ya ideoloji çərçivəyə uyğunlaşdırılmış şəkildə təqdim edilmişdir. Səlcuq türkləri işğalçı, Osmanlı türkləri isə zorakılıq törədən bir xalq kimi qələmə verilmişdir. Həmçinin türk mənşəli Nadir şah İran hökmdarı kimi göstərilmiş, onun yaratdığı Əfşarlar dövləti də İran dövləti adı altında təqdim olunmuşdur. Bu yanaşma yalnız Əfşarlarla məhdudlaşmamış, türk mənşəli Qacarlar dövləti də eyni şəkildə "İran dövləti" kimi dərsliklərdə təsvir edilmişdir.

Rus-sovet ideologiyasının əsas məqsədi tərkibindəki xalqlara öz milli kimliklərini unutdurmaq, onları "sovet xalqı" konsepsiyası çərçivəsində assimilyasiya etmək, həmçinin türk dövlətləri ilə SSRİ tərkibində yaşayan türk xalqları arasında tarixi-mədəni bağların formalaşmasına mane olmaq idi.

## Ədəbiyyat

1. Azərbaycan tarixi: 5-ci sinif üçün dərslik, (2024), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi
2. Azərbaycan tarixi: 6-ci sinif üçün dərslik, (2025), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi
3. Qədim dünya tarixi: 5-ci sinif üçün dərslik, (1979), Bakı, Maarif nəşriyyatı
4. Korovkin F. P., (1959), Qədim dünya tarixi: 5-6-cı siniflər üçün dərslik, Bakı, Azərbaycan dövlət nəşriyyatı

5. Korovkin F. P., (1961), Qədim dünya tarixi: 5-6-cı siniflər üçün dərslik, Bakı, Azərbaycan dövlət tədris-pedaqoji ədəbiyyatı nəşriyyatı
6. Kosminski E. A., (1947), Orta əsrlər tarixi: 6-7-ci siniflər üçün dərslik, Bakı, Azərnəşr
7. SSRİ tarixi: 8-ci sinif üçün dərslik I hissə, (1958), Bakı, Azərbaycan dövlət nəşriyyatı
8. SSRİ tarixi: 9-cu sinif üçün dərslik II hissə, (1959), Bakı, Azərbaycan dövlət nəşriyyatı
9. SSRİ tarixi: 10-cu sinif üçün dərslik II hissə, (1960), Bakı, Azərbaycan dövlət tədris-pedaqoji ədəbiyyatı nəşriyyatı
10. Ümumi tarix: 6-ci sinif üçün dərslik, (2021), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi

## IDEOLOGICAL DIMENSIONS OF THE REPRESENTATION OF TURKIC PEOPLE IN SOVIET-ERA AZERBAIJANI SECONDARY SCHOOL HISTORY TEXTBOOKS

**G.V. Khanizadeh**
Azerbaijan State Pedagogical University, Uzeyir Hajibeyli 68, Baku, Azerbaijan

**Abstract.** The article comprehensively examines the attitude towards the “Turkic peoples” in history textbooks taught in secondary schools during the Soviet era. The main goal of the USSR was to spread the “Soviet ideology” among the peoples within its borders, to weaken their national identities and to fragment the common historical memory. Studies show that the history of the Turkic peoples was kept in the shadows, and their statehood traditions, cultures and common values were not presented objectively. As a result, a weakening of patriotic feelings, indifference to the common cultural heritage and the emergence of gaps in national self-awareness were observed.

**Keywords:** Turkic peoples, history textbooks, Soviet period, secondary school.